## “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 738; 2005, № 6, maddə 466; 2007, № 5, maddə 401, № 11, maddə 1071; 2008, № 2, maddə 49; 2018, № 5, maddə 866; 2019, № 3, maddə 379) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.3-cü maddədə “müntəzəm olaraq” sözlərindən sonra “dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən” sözləri əlavə edilsin;

1.2. 6-cı, 7.6.3-cü, 7.7.4-cü, 8.2.3-cü, 9.1.1-ci və 9.2.3-cü maddələr ləğv edilsin;

1.3. 7.6.2-ci və 7.7.3-cü maddələrdə “dövlət sosial sığorta şəhadətnaməsi olmayan” sözləri “fərdi uçota alınmamış” sözləri ilə əvəz edilsin;

1.4. 10.2.2-ci maddəyə “izah etmək” sözlərindən sonra “, habelə fərdi şəxsi hesabındakı məlumatlara baxış imkanının yaradılmasını təmin etmək” sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun 2021-ci il yanvarın 1-dən tətbiq edilir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 aprel 2021-ci il
№ 297-VIQD